

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 195 (23.106)

*13 oktyabr 2018-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## A.B.Əzizova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasında tikinti və tarix-memarlıq abidələrinin bərpası sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Arif Bəylər oğlu Əzizova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 12 oktyabr 2018-ci il*

## Müstəqil Azərbaycanın yeni yüksəliş dövrü



*Dövlətçilik tarixinə malik elə bir xalq yoxdur ki, o xalqların inkişafında liderlərin rolu olmasın. Çünki liderlər hər zaman öz ölkəsinin mənafeyini düşünərək, xalqının azadlıq və müstəqillik ideyalarını əsas götürərək onun uğrunda mübarizə aparırlar. Xalqımızın dahi oğlu Heydər Əliyev də həyatının bütün mərhələlərində Azərbaycana xidmət etmiş, onun müstəqilliyi üçün çalışaraq Vətənə xidmətin nümunəsini yaratmışdır. Bu gün isə müstəqil Azərbaycanda ulu öndərin quruculuq yolu, inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Cənab İlham Əliyev 15 il bundan əvvəl – 2003-cü il oktyabrın 15-də seçicilərinin böyük səs çoxluğu ilə dövlət başçısı seçildikdən sonra ölkəmizi dünya dövlətləri sırasında layiqli, eyni zamanda nüfuzlu yerə yüksəltməklə ulu öndərimizin Azərbaycan haqqında arzularını reallaşdırmışdır.*

Ötən dövr onu göstərdi ki, əgər 1993-cü il oktyabrın 3-də ümummilli lider Heydər Əliyev xalqın böyük dəstəyilə dövlət başçısı seçilərək ölkəmizi ağır təlatümlərdən, müstəqilliyimizi məhv olmaqdan qurtarmışdırsa, cənab İlham Əliyev bu müstəqilliyi daha da inkişaf etdirərək Azərbaycanın beynəlxalq arenada güclənməsini, onun uzunmüddətli inkişafını təmin etmişdir. Bu mənada, 15 oktyabr tarixi ölkəmizin ən yeni tarixində Heydər Əliyev quruculuq xəttinə sədaqətin təzahürü kimi böyük əhəmiyyət daşıyır. Eyni zamanda 2003-cü ilin 15 oktyabr seçkiləri bir daha təsdiqlədi ki, xalqımız ümummilli lider Heydər Əliyevin siyasi kursuna sadiqdir. Çünki bu kurs ölkəyə və onun vətəndaşlarına xidmət yolunu özündə əks etdirir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Azərbaycan xalqı Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur. Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir".***

Təsadüfi deyil ki, cənab İlham Əliyevin dünyagörüşü, intellektual səviyyəsi və müasir dövrün idarəçilik sistemində beynəlxalq qaydaları dərindən bilməsi, ölkə Prezidenti seçilməmişdən əvvəl də mühüm uğurların əldə olunması ilə nəticələnmişdi. Belə ki, Milli Məclisin deputatı kimi Avropa Şurasının Parlament Assambleyasındakı nümayəndə heyətimizin başçısı olarkən AŞPA münaqişə tarixində ilk dəfə olaraq Ermənistanı işğalçı dövlət kimi tanıyan rəsmi sənəd qəbul etmişdi. Bundan əlavə, ARDNŞ-in birinci vitse-prezidenti kimi ölkəmizin neft-qaz strategiyasının hazırlanmasında, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti kimi ölkəmizdə kütləvi idman hərəkatının yeni mərhələyə qədəm qoymasında əldə etdiyi nailiyyətlərlə xalqın etimadını qazanmışdı. Təsadüfi deyil ki, 1999-cu ildə Yeni Azərbaycan Partiyasının sədr müavini, 2001-ci ildə isə sədrin birinci müavini seçilməsindən sonra siyasi həyatda nümayiş etdirdiyi fəallıq onun liderlik keyfiyyətlərini ortaya qoymuşdu. Və bütün bu amillər xalqın liderinə çevrilmiş cənab İlham Əliyevin 15 oktyabr seçkilərində qazandığı qələbənin əsasını təşkil edirdi. Onun Prezident kimi xalqa verdiyi vəd isə pafosdan uzaq, sadə, bir cümləyə sığan, ancaq böyük məna kəsb edən əsl rəhbər tezisi idi: ***"Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam".***

Ölkə başçısının ötən 15 il ərzində fəaliyyətini nəzərdən keçirsək, görərik ki, cənab İlham Əliyev qısa müddət ərzində ümumxalq sevgisi qazanıb və hər bir Azərbaycan vətəndaşının Prezidenti olub. Hər şeydən əvvəl, ölkəmizin demokratik inkişafı yolunda atılan addımlar – əfv fərmanları və amnistiya aktları, insan hüquqlarının daha geniş şəkildə qorunması dövlət başçısının siyasi fəaliyyətinin əsas qayəsini təşkil edir. Sosial siyasətin uğurlu tətbiqi kimi əhali rifahının diqqət mərkəzində saxlanılması, minimum əməkhaqqı və pensiyaların artırılması, ölkəmizin beynəlxalq aləmdəki nüfuzunun yüksəldilməsi və mövqelərinin möhkəmləndirilməsi ilə yanaşı, Azərbaycanın sosial-iqtisadi inkişafı da yeni mərhələyə qədəm qoymuşdur. Siyasi təhlilçilərin də qeyd etdiyi kimi Azərbaycanın sosial-iqtisadi inkişafının əsas mərhələsi 2003-cü ildən başlamışdır. Həmin dövrdən başlayaraq dövlət başçısının iradəsi ilə ölkədə qeyri-neft sektoru prioritet istiqamət təşkil etmiş, sahibkarlığın inkişafı üçün lazımi şərait yaradılmışdır. Ölkədə əlverişli investisiya mühitinin yaradılması milli sahibkarlığın inkişafı ilə yanaşı, xarici investorların da Azərbaycana marağını artırmışdır. Kompleks tədbirlər kimi icrası nəzərdə tutulan Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramları isə regionlarda mövcud olan əmək ehtiyatlarından səmərəli istifadəni, əhalinin məşğulluğunu, yeni iş yerlərinin yaradılmasını, aqrar sektorda islahatların həyata keçirilməsini stimullaşdırmış, yüzlərlə yeni istehsal və sənaye müəssisələrinin yaradılmasına imkan vermişdir.

İnkişafın Azərbaycan modelinin əsas nəticələri bunlardır: Son 15 ildə Azərbaycan iqtisadiyyatı 3,2, qeyri-neft sektoru 2,8, sənaye istehsalı 2,6 və kənd təsərrüfatı 1,7 dəfə artmış, ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulmuşdur. Bu dövrdə Azərbaycanda 3 mindən çox məktəb, 642 tibb müəssisəsi tikilmiş, 1,9 milyon yeni iş yeri açılmış, maaşlar 5 dəfədən, pensiyalar isə 8 dəfədən çox artmış, işsizlik səviyyəsi 5 faizə, yoxsulluq 5,4 faizə düşmüşdür.

Təbii ki, bu illər ərzində Azərbaycan təkcə daxili iqtisadiyyatda əldə etdiyi uğurlarla deyil, həm də həyata keçirdiyi mühüm regional layihələri ilə diqqət çəkmişdir. Belə ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, Bakı-Tbilisi-Qars dəmir yolunun əfsanədən reallığa çevrilməsi Azərbaycanın iqtisadi və siyasi nüfuzunu göstərdi. Hazırda ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Hollandiya, Belçika, Türkiyə, Yaponiya, Norveç, Almaniya, Çin və digər inkişaf etmiş dövlətlər Azərbaycanla neft və qeyri-neft sahəsində mühüm iqtisadi layihələrdə iştirak edirlər. Belə layihələrin reallaşdırılması ölkəmizin beynəlxalq aləmə inteqrasiyasına güclü dəstək verir. Artıq reallaşdırılan TANAP və TAP layihələri Avropanın böyük qaz bazarına nüfuz edən Azərbaycanı etibarlı tərəfdaş kimi tanıdır. Bununla yanaşı, dövlət başçısı Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görmüş, Azərbaycanı regionun və dünyanın beynəlxalq nəqliyyat dəhlizinə çevirmişdir.

Azərbaycanın əldə etdiyi iqtisadi uğurlar ölkəmizin beynəlxalq aləmdə nüfuzunun güclənməsinə səbəb olmuşdur. Dünya dövlətləri ilə bərabərhüquqlu, faydalı əməkdaşlıq münasibətləri quran ölkəmizin 2011-ci il oktyabrın 24-də Birləşmiş Millətlər Təşkilatına üzv olan 193 dövlətdən 155-nin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi bu nüfuzun göstəricisidir. Ölkə Prezidentinin düzgün müəyyənləşdirilmiş xarici siyasət kursu nəticəsində Ermənistan qısa müddətdə dünyada işğalçı ölkə kimi tanınmışdır. Bu sahədə görülən işlərin nəticəsidir ki, bu gün BMT, Avropa Şurası, Avropa İttifaqı, ATƏT və digər beynəlxalq təşkilatlar, həmçinin aparıcı dövlətlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə və Azərbaycanın ərazi bütövlüyünün bərpası şərtilə həll olunmasını tələb edirlər.

Bu illərdə müstəqil Azərbaycanın qazandığı ən mühüm nailiyyət, təbii ki, qüdrətli orduya sahib olmasıdır. Ölkə Prezidentinin rəhbərliyi ilə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər görülmüşdür. Azərbaycanda 1200 adda hərbi təyinatlı məhsul istehsal edən müdafiə sənayesi kompleksi formalaşmış, ordumuzun silah arsenalı möhkəmləndirilmişdir. 2016-cı il aprel ayında ordumuz tərəfindən cəbhə xəttində Ermənistanın hərbi təxribatının qarşısının alınması və əks-hücum nəticəsində Ağdərə, Cəbrayıl, Füzuli rayonlarında iki min hektar ərazinin düşməndən azad edilməsi işğal altında qalan torpaqlarımıza nəzarət etmək imkanını artırmışdır. 2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasında 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilmiş, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirilmiş, Yerevan-Gorus-Laçın yolu nəzarətə götürülmüşdür. Bu iki fakt Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarımızın qısa müddətdə işğaldan tam azad olunacağına əminlik yaradır.

Ümumiyyətlə, ölkəmizin ötən illər ərzində əldə etdiyi bütün uğurların kökündə dayanan ən mühüm amil müstəqilliyimizin möhkəmləndirilməsi olmuşdur. Dövlət başçısının bu istiqamətdə həyata keçirdiyi siyasi kurs Azərbaycanın müstəqil dövlət kimi öz milli mənafeyini qorumaq və inkişaf etdirmək əzmini daha da artırmışdır.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilən milli strateji kurs Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Blokadanın yaratdığı çətinliklərə baxmayaraq, bu gün muxtar respublikada böyük quruculuq tədbirləri həyata keçirilir, mühüm dövlət proqramları uğurla icra olunur. İndi Naxçıvanda bütün sahələr özünün yeniləşmə, çiçəklənmə dövrünü yaşayır. Bu müsbət dəyişiklikləri hazırda muxtar respublikamızın gündən-günə yeniləşən simasında bir daha görürük.

Ötən 15 ildə muxtar respublikada sənaye 61,9 dəfə, kənd təsərrüfatı 6,5 dəfə, əhali gəlirləri 1,3 dəfə, əsas kapitala yönəldilən vəsaitlər isə 64,8 dəfə artmışdır. 2003-2017-ci illərdə muxtar respublikada 210 məktəb binası, 409 mədəniyyət, 246 səhiyyə, 41 idman, 527 inzibati bina, 100 nasos stansiyası, 815 istehsal və xidmət obyekti tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyev də hər il ənənəvi olaraq muxtar respublikaya səfərlərində bu yeniliklərlə yerindəcə tanış olur, görülən işləri yüksək qiymətləndirir.

Son 15 ildə 14 dəfə muxtar respublikaya səfər edən ölkə Prezidenti cənab İlham Əliyev 135-dən çox müxtəlif təyinatlı mühüm əhəmiyyətə malik obyektin açılışında iştirak etmişdir. Muxtar respublikaya son səfərindən sonra ölkə Prezidenti Naxçıvan Muxtar Respublikası ərazisində meliorativ tədbirlərin həyata keçirilməsi, sosial-iqtisadi inkişafın sürətləndirilməsi, Ordubad Su Elektrik Stansiyasının və Culfa-Ordubad magistral avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlərin davam etdirilməsi üçün 4 sərəncam imzalamışdır. Bu sərəncamlarda nəzərdə tutulan işlərin yerinə yetirilməsi üçün, ümumilikdə, muxtar respublikaya 55 milyon manat vəsait ayrılmışdır. Bu fakt dövlət başçısının Naxçıvan Muxtar Respublikasının inkişafına göstərdiyi diqqətin daha bir ifadəsidir.

Muxtar respublikamızda görülən işlər, əldə olunan inkişaf ulu öndərimiz Heydər Əliyevin siyasi xəttinin bəhrəsidir. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Heydər Əliyev siyasəti bu gün Azərbaycanda yaşayır, davam edir, əbədi yaşamalıdır və yaşayacaqdır. Biz bu siyasətin gözəl nəticələrini ölkəmizin hər yerində görürük, o cümlədən Naxçıvan Muxtar Respublikasında. Burada aparılan işlər çox yüksək qiymətə layiqdir. Bütün işlər böyük məhəbbətlə, zövqlə görülür ki, insanlar üçün yaxşı şərait yaradılsın, Naxçıvan Muxtar Respublikası bundan sonra da uğurla inkişaf etsin".***

Bu gün ölkə başçısı ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək Azərbaycanı inam və qətiyyətlə irəli aparır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Heydər Əliyev yolu ilə gedərək gündən-günə inkişaf edən, tərəqqiyə qovuşan Azərbaycanda əldə olunan bütün nailiyyətlərdə Heydər Əliyevin işi və əməlləri yaşayır. Zaman keçdikcə bu nailiyyətlər daha da artır. Çünki bu yolu Heydər Əliyev məktəbinin ən layiqli yetirməsi olan hörmətli Prezidentimiz cənab İlham Əliyev davam etdirir. Bu gün xalqımız əmindir ki, ümummilli liderimizin siyasi kursu möhkəm əllərdədir. Bu kursu davam etdirən ölkə rəhbəri nəinki regionda, bütövlükdə dünyada qəbul edilmiş siyasətçi kimi Azərbaycanı, onunla birlikdə isə Heydər Əliyev kursunu da yaşadır, ölkəmizi inamla daha xoşbəxt gələcəyə aparır".***

**"Şərq qapısı"**

## Şahmat Federasiyasının kuboku uğrunda birincilik başa çatmışdır



*Naxçıvan Şahmat Mərkəzində Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının kuboku uğrunda keçirilən muxtar respublika birinciliyi başa çatmışdır.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Şahmat Federasiyasının birgə təşkil etdiyi birincilikdə şəhər və rayonların, ümumilikdə, 8 komandası mübarizə aparmışdır. Reqlamentə əsasən birincilikdə çıxış edən hər komandanın heyətində 4 oğlan və 2 qız şahmatçı iştirak etmişdir. Belə ki, oğlanlar 8, 10, 12 və 14 yaş, qızlar isə 10 və 14 yaş qruplarında güclərini nümayiş etdirmişlər. Xal hesablamalarda hər qələbəyə 2, heç-heçəyə isə 1 xal verilmişdir.

“Naxçıvan” komandası keçirdiyi 7 tur ərzində bütün görüşlərini qələbə ilə başa vuraraq Şahmat Federasiyasının kuboku uğrunda keçirilən birinciliyin qalibi olmuşdur. 10 xal toplayan “Babək” komandası birinciliyi ikinci pillədə başa vurmuşdur. Onlardan bir xal geri qalan “Ordubad” komandası isə üçüncü olmuşdur.

Sonda qalib komandalar kubokla, şahmatçılar isə diplom və medalla mükafatlandırılmışlar. Mükafatları Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov və Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov təqdim etmişlər.

Daha sonra Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov federasiyanın məşqçi-müəllimləri ilə görüş keçirmiş, onların fikir və təkliflərini dinləmiş, öz tapşırıq və tövsiyələrini vermişdir.

Yarışdan sonra idmançılar Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksini ziyarət etmişlər.

**“Şərq qapısı”**





## “Babək rayonu 40 ildə” mövzusunda konfrans keçirilib



Konfransı giriş sözü ilə Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2018-ci il fevralın 16-da “Babək rayonunun təşkil olunmasının 40 illiyi haqqında” Sərəncam imzalayıb. Tədbirlər Planı təsdiq edilib. Tədbirlər Planına əsasən bu gün Babək Rayon İcra Hakimiyyəti, İqtisadiyyat Nazirliyi, Dövlət Statistika Komitəsi və AMEA-nın Naxçıvan Bölməsinin təşkilatçılığı ilə “Babək rayonu 40 ildə” mövzusunda konfrans keçirilib.

Qeyd olunub ki, 1978-ci il oktyabrın 23-də ümummilli liderimiz Heydər Əliyev tərəfindən yaradılan Babək rayonu bu gün müasir inkişaf dövrünü yaşayır. Dahi şəxsiyyətin yolunun ölkəmizdə, eləcə də onun Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilməsinin nəticəsidir ki, rayonda bütün sahələrdə irəliləyişlərə nail olunub, infrastruktur yenilənib.

İcra başçısı rayonun davamlı inkişafına göstərdiyi diqqət və qayğıya, 40 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə rayon ictimaiyyəti adından dərin minnətdarlığını bildirib.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli “Babək rayonunun yaranması və inkişaf tarixi”, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında Babək rayonunun rolu”, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Vaqif Rəsulov “Babək rayonunun sosial-iqtisadi inkişafı” mövzularında məruzə ediblər. Məruzələrdə bildirilib ki, muxtar respublikanın bütün bölgələri kimi Babək rayonu da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə əhatə olunub. İqtisadi və sosial sahələrdə aparılmış kompleks tədbirlər Babək rayonunu davamlı inkişaf mərhələsinə yüksəldib, əhalinin rifahı yaxşılaşıb. Hazırda rayonda yüngül, yeyinti, kağız, karton və poliqrafiya, kimya, energetika sənayesi və tikinti sahələri olmaqla, 70-dən artıq müəssisə fəaliyyət göstərir. Beş layihə üzrə yeni müəssisələrin yaradılması isə davam etdirilir. Ümumilikdə, rayonda 1200-dən çox sahibkarlıq subyekti vardır və bu müəssisələrdə 45 növdə 150-dən çox çeşiddə məhsul istehsal olunur. Bu gün muxtar respublikada istehsal olunan sənaye məhsulunun 12 faizi, kənd təsərrüfatında istehsal olunmuş ümumi məhsulun isə 20 faizi Babək rayonunun payına düşüb. Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi yolun muxtar respublikamızda uğurla davam etdirilməsi rayonda inkişaf və tərəqqinin bundan sonra da davamlı xarakter alacağına əminlik yaradır.

Konfrans konsert proqramı ilə başa çatıb.

**Gülcamal TAHİROVA**

## Naxçıvanda “İdeyadan Biznesə” layihəsi çərçivəsində startap turu təşkil olunub

*Dünən Naxçıvan Dövlət Universitetində muxtar respublikanın ali təhsil ocaqlarında təhsil alan tələbələrin iştirakı ilə “İdeyadan Biznesə” layihəsi çərçivəsində startap turu keçirilib.*



Tədbirdə universitetin İqtisadiyyat fakültəsinin dekanı Əşrəf Ələkbərov çıxış edərək bildirib ki, muxtar respublikada fəaliyyət göstərən ali təhsil ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, tədris prosesində innovativ texnologiyalardan geniş istifadə uğurlara yol açıb.

Azərbaycan Respublikası Nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müşaviri Tahir Məmmədov çıxışında innovasiyalar, informasiya-kommunikasiya texnologiyaları sahəsində ölkəmizdə aparılan dövlət siyasətindən, bu sahəyə cavabdeh qurum kimi nazirliyin həmin sektorun inkişafı istiqamətində həyata keçirdiyi layihələrdən danışıb.

Çıxışlardan sonra layihənin qaydaları və formatı barədə məlumat verilib. Təqdim olunan layihələrin münsiflər heyəti və komandalar arasında birgə müzakirəsi aparılıb, komanda üzvlərinə hədiyyələr verilib.

Tədbirin sonunda qalib gələn layihələrin adları açıqlanıb. “Nouhland” və “Compex” layihələri I, “Naxçıvan məhsullarının onlayn satışı” və “Nads” layihələri II və “Naxçıvan Book House” layihəsi III yerlərə layiq görülüblər.

Qeyd edək ki, layihə Heydər Əliyev Fondunun, Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, həmin nazirliyin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun və Yüksək Texnologiyalar Parkının, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının, “Regional İnkişaf” İctimai Birliyinin, Azərbaycan Respublikasının Gənclər Fondunun, “Azercell” və “Microsoft” şirkətlərinin təşkilatçılığı ilə təşkil olunub.

**Nail ƏSGƏROV**

*Naxçıvan şəhərinin 2018-ci il ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar ali və orta ixtisas təhsili müəssisələrinin birinci kursunda təhsil alan tələbələrlə “Gələcəyə doğru” layihəsi adı altında görüş keçirilmişdir.*

## “Gələcəyə doğru” layihəsi adı altında tələbələrlə görüş



Görüş Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi və təşkilatın Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən təşkil olunmuşdur.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsi müdirinin müavini Sahir Rüstəmov çıxış edərək bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə muxtar respublikada gənclik mərkəzləri, elektron kitabxanalar, mədəniyyət evləri, ali və orta ixtisas təhsili müəssisələri üçün yeni tədris korpusları, olimpiya-idman kompleksləri, idman mərkəzləri tikilərək gənclərin istifadəsinə verilib. Gənc istedadlar dövlət qayğısı ilə əhatə olunub. Dövlət idarəçiliyinin bütün sahələrində gənclər irəli çəkilir. Muxtar respublikada gənclərin təşkilatlanması və fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. Gənclərlə iş sahəsində muxtar respublikada Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, partiyanın şəhər və rayon təşkilatlarının Gənclər birlikləri, ali və orta ixtisas təhsili müəssisələrində tələbə-gənclər təşkilatları fəaliyyət göstərir.

Sahir Rüstəmov vurğulamışdır ki, muxtar respublikada gəncliyə göstərilən dövlət qayğısı etibarlı gələcəyimizə xidmət edir. Görülən işlərin nəticəsidir ki, Naxçıvan şəhəri 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı seçilmişdir. Bununla bağlı hazırlanmış tədbirlər planına uyğun olaraq Naxçıvan şəhərində “Hünər” XII Vətənpərvərlik Mahnıları Festivalı keçirilmiş, gənclərin qış və yay məktəbləri, “Qurtuluşdan Əlincəqalaya” devizi altında yürüş, “Azərbaycançılıq və gənclik” adlı təbliğat kampaniyası təşkil edilmiş, muxtar respublikanın şəhər və rayonlarında “Gənclər bağı” salınmışdır. Gənclərin Azərbaycana layiqli vətəndaş kimi yetişmələrinin qarşıda duran əsas vəzifə olduğunu vurğulayan Sahir Rüstəmov “Gələcəyə doğru” layihəsinin bu baxımdan faydalı olacağını bildirmiş, gənclərə uğurlar arzulamışdır.

Naxçıvan Muxtar Respublikası gənclər və idman naziri Azad Cabbarov diqqətə çatdırmışdır ki, Azərbaycan gənclərinin aparıcı qüvvə kimi formalaşmasında dövlətimizin gənclər siyasətinin mühüm rolu vardır. Bu siyasətin banisi isə xalqımızın ümummilli lideri Heydər Əliyevdir. Ulu öndərin ideyalarını və irəli sürdüyü prinsipləri əsas götürən dövlət başçısının həyata keçirdiyi dövlət gənclər siyasəti nəticəsində gənclərimiz cəmiyyətimizin inkişafında fəal sosial təbəqəyə çevriliblər.

Nazir vurğulamışdır ki, bu gün muxtar respublikada məşğul əhalinin əksəriyyətini təşkil edən gənclər hərtərəfli diqqət və qayğı ilə əhatə olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” Fərmanı gənclərə göstərilən diqqət və qayğının məntiqi davamıdır. Bu fərmanla Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı” təsis olunmuş, idman və yaradıcılıq sahəsində fərqlənən istedadlı gənclərin adları həmin kitaba daxil edilmişdir. Muxtar respublikada hər zaman diqqətdə saxlanılan məsələlərdən biri də təhsilli gənclərin yetişdirilməsidir. Bu gün burada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələri müasir dünya təhsil standartlarına cavab verir. Muxtar respublika gəncləri bu gün göstərilən qayğıya cavab olaraq özlərini cəmiyyətin ən layiqli təbəqəsi kimi formalaşdırmağa, dövlətçiliyimizin möhkəmləndirilməsi və ölkəmizin inkişafında potensial imkanlarını səfərbər etməyə çalışırlar.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimov çıxışında partiyanın cəmiyyətimizdəki mövqeyi və siyasi sistemdəki rolu barədə tələbələrə məlumat vermişdir. Qeyd edilmişdir ki, hazırda Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatında 54 min 611 nəfər partiya üzvü birləşib. Partiya üzvlərinin 41 faizə yaxını gənclər, onlardan 4515 nəfəri isə tələbədir. Bu rəqəm onu göstərir ki, gənclər indiki siyasi iqtidara inanır və onun siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyası özünün siyasi və ictimai ifadəsinin əsas vasitəsi kimi görür. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə muxtar respublikada həyata keçirilən hər bir tədbir, təşəbbüs bu partiyanın adı ilə bağlıdır.

2018-ci ildə qəbul imtahanlarından yüksək bal toplayan Zübeydə Zeynalova çıxış edərək muxtar respublikada gənclərə göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirmişdir.

Sonra muxtar respublikamızda həyata keçirilən gənclər siyasəti ilə bağlı slayd nümayiş etdirilmiş, Naxçıvan Dövlət Televiziyasının hazırladığı qısametrajlı film göstərilmişdir.

Tədbirdə Gənclər və İdman Nazirliyi tərəfindən sosial şəbəkələrdə keçirilən “Naxçıvan Gənclər Paytaxtıdır” mövzusunda gənclər arasında fotomüsabiqənin qalibləri mükafatlandırılmışlar.

“Gələcəyə doğru” layihəsi adı altında görüş konsert proqramı ilə davam etdirilmişdir.

**“Şərq qapısı”**

# Qars müqaviləsi və Naxçıvanın statusu məsələsi

***Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında bağlanmış Qars müqaviləsindən 97 il ötür. Qars müqaviləsi ilə Türkiyə və Cənubi Qafqaz respublikaları arasında ərazi-sərhəd məsələləri həll olundu. Bu müqavilənin əsas müddəaları Moskva müqaviləsinin müvafiq maddələri ilə üst-üstə düşürdü. Qars müqaviləsi Moskva müqaviləsi ilə müəyyənləşdirilmiş müddəaların təsdiq edilməsi idi.***

"Böyük Ermənistan" yaratmaq üçün bir sıra torpaqlara iddialı olan ermənilər Naxçıvanı Azərbaycandan qoparmaq üçün bütün vasitələrdən istifadə edirdilər. 1918-1920-ci illərdə ermənilər Naxçıvanda soyqırımlar törətmiş, lakin əhalini tabe edə bilməmişdilər. 1920-ci il oktyabrın 28-də Sovet Rusiyası ilə daşnak Ermənistanı arasında bağlanmış müqavilədə isə Azərbaycanın rəyi nəzərə alınmadan Zəngəzur Ermənistana güzəşt edilmişdi.

1920-ci il noyabrın 29-da Ermənistanda bolşevik hakimiyyəti yaradılmışdır. Bu münasibətlə Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etmişdir. Azərbaycan Hərbi İnqilab Komitəsinin bəyanatı Naxçıvan və Zəngəzurun müsəlman əhalisinin güclü narazılığına səbəb olmuşdur. Naxçıvan əhalisi diyarın Azərbaycandan qoparılmasına ciddi etiraz etmişdir. Bu bəyanat Türkiyə nümayəndələrinin də etirazı ilə qarşılanmışdı. Vəziyyətin kəskinləşdiyini görən Azərbaycan rəhbərliyi Behbud ağa Şahtaxtinskini Naxçıvana göndərmişdir. Naxçıvana gələn Behbud ağa Şahtaxtinski burada yerləşən türk nümayəndələri ilə münasibətləri normallaşdıraraq onlarla birgə Naxçıvanın Ermənistan tərəfindən nəzarətə götürülməsinin qarşısını almaq üçün fəaliyyətə başlamışdır.

Behbud ağa Şahtaxtinskinin keçirdiyi mitinqlərdə əhalinin böyük əksəriyyəti Naxçıvanın Azərbaycan SSR-in himayəsində müstəqil sovet respublikası kimi təşkil edilməsi arzusunda olduqlarını bildirmişdi. Ermənistan Respublikası Naxçıvan əhalisinin iradəsi qarşısında dura bilməyib 1920-ci il 28 dekabr bəyanatı ilə Naxçıvanı müstəqil sovet respublikası kimi tanıdığını, daşnakların ona qarşı ərazi iddialarından imtina etdiyini bildirdi.

Rusiya tərəfi də müəyyən siyasi səbəblərdən Naxçıvanın müsəlman əhalisinin iradəsi ilə hesablaşaraq Türkiyə tərəfinin təkliflərini, Azərbaycan bolşevik rəhbərlərinin bir sıra üzvlərinin mövqeyini nəzərə alaraq, Naxçıvanın öz müqəddəratını həll etmək hüququnu tanımaq məcburiyyətində qalmışdı. Naxçıvan ərazisini Azərbaycandan ayıran Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruriləşdirmişdi. Ermənistan SSR hökuməti Naxçıvanı ilhaq etmək üçün yeni cəhdlər göstərirdi. Lakin 1921-ci ilin yanvarında keçirilmiş rəy sorğusunda Naxçıvan əhalisinin 90 faizdən çoxu mahalın muxtariyyət statusunda Azərbaycan SSR-in tərkibində qalmasına səs vermişdir.

Naxçıvanın Ermənistana güzəştə gedilməsinə qarşı çıxan Behbud ağa Şahtaxtinskinin fəaliyyətini xüsusi qeyd etməliyik. Onun Rusiya Xalq Komissarları Sovetinin sədri V.İ.Leninə göndərdiyi 1 mart 1921-ci il tarixli teleqram-məktubunda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ, Zaqatala, Borçalı, Qarayazı düzü, Dağıstan, Şimali Qafqaz müsəlman xalqlarının milli tərkibi, sayı haqqında məlumat verilir. O, bu məktubda Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazilərinin gələcəyindən ciddi narahatlığı çatdırmış, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da əlavə etmiş, Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermişdi. Behbud ağa Şahtaxtinskinin təklifləri V.İ.Lenini maraqlandırmış və o, məsələnin RK(b)P MK Siyasi Bürosunda müzakirə edilməsi barədə göstəriş vermişdi.

Bu zaman Türkiyə nümayəndə heyəti Rusiya ilə danışıq aparmaq və müqavilə bağlamaq üçün Moskvaya gəlmişdi. Nümayəndə heyətinə əvvəlcə Bəkir Sami bəy, sonra isə Yusif Kamal bəy rəhbərlik edirdi. Fevralın 26-da başlayan danışıqlar martın 16-da "Dostluq və qardaşlıq haqqında" Moskva müqaviləsi ilə nəticələndi. Müqavilə 16 maddə və 2 əlavədən ibarət idi. Həmin gün RK(b)P MK Siyasi Bürosu Behbud ağa Şahtaxtinskinin təkliflərini bəyənərək Azərbaycanın tərkibində Naxçıvan Sovet Respublikası yaradılması haqqında qərar qəbul etmişdi. Moskva müqaviləsinin üçüncü maddəsinə əsasən Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verilmişdir. Müqavilənin şərtlərinə görə, Azərbaycan onun protektoratını üçüncü dövlətə verə bilməzdi. Bu şərt Türkiyə tərəfinin təkidi ilə qəbul edilmişdi və gələcəkdə Naxçıvanın Ermənistana verilməsinin qarşısını almaq məqsədi daşıyırdı.

Moskva müqaviləsinə görə Naxçıvanın sərhədləri (1 C) əlavəsində göstərilən şəkildə müəyyən edilmişdi: Ararat stansiyası (8930-3080) – Saray bulaq dağı (8071) – Kömürlüdağ (8839) – Sayat dağı (7868) – Qurdqulaq kəndi – Həmsər dağı (8160) – yüksəklik (8022) – Kükü dağı (10282) və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi.

Moskva müqaviləsinin imzalanmasının böyük tarixi əhəmiyyəti vardır. Bu müqavilə Azərbaycanın bütövlüyünü qorumuş və Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə aydınlıq gətirmişdir.

Sovet Rusiyası ilə Türkiyə arasında bağlanmış Moskva müqaviləsi ilə Cənubi Qafqaz respublikaları arasında mübahisəli olan bir çox məsələlər öz hüquqi həllini tapmışdır. Bundan sonra Rusiya çalışırdı ki, Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında vahid müqavilə imzalansın. Lakin Türkiyə istəyirdi ki, üç Cənubi Qafqaz respublikası ilə ayrı-ayrılıqda müqavilə imzalasın. 1920-1921-ci illərdə Cənubi Qafqazın tam sovetləşdirilməsi və bu respublikalarda siyasi hakimiyyətin faktiki olaraq Sovet Rusiyasının nəzarətinə keçməsi, Türkiyəni Sovet Rusiyasının təklif etdiyi formatda müqavilə imzalamağa məcbur etmişdir.

Aparılan diplomatik danışıqlar və yazışmalardan sonra Türkiyə ilə üç Cənubi Qafqaz respublikası arasında Rusiya nümayəndəsinin iştirakı ilə konfransın 1921-ci il sentyabrın 26-da Qars şəhərində keçirilməsi razılaşdırılmışdır. AK(b)P MK Siyasi Bürosunun 1921-ci il 26 avqust tarixli qərarı ilə xalq fəhlə-kəndli nəzarəti komissarı Behbud ağa Şahtaxtinski Azərbaycan SSR-in konfransdakı nümayəndəsi təyin olundu. Azərbaycan diplomatiyası çalışırdı ki, Qarsda güclü təmsil olunsun. Behbud ağa Şahtaxtinskinin konfransda iştirakı faktının özü Sovet Azərbaycanı rəhbərliyinin bu məsələyə böyük əhəmiyyət verdiyini göstərirdi. Lakin Azərbaycan Kommunist Partiyasının rəhbərliyində olan S.Danielyan, L.Mirzoyan, A.Mikoyan, S.Orconikidze hələ 1921-ci ilin iyununda Behbud ağa Şahtaxtinskini danışıqlardan uzaqlaşdırmağa və onu özləri üçün daha əlverişli adamla əvəz etməyə can atırdılar. Nəriman Nərimanovun bu məsələ ilə bağlı prinsipial mövqeyi sayəsində Behbud ağa Şahtaxtinski fəaliyyətini davam etdirə bildi. Qeyd etməliyik ki, Naxçıvan SSR Xalq Komissarları Soveti Qars konfransında Naxçıvan ölkəsinin mənafeyini müdafiə etmək üçün Tağı Səfiyevi ora ezam etmişdi.

Qars konfransı 1921-ci il sentyabrın 26-dan oktyabrın 13-dək keçirilmişdir. Açılışda Kazım Qarabəkir paşa, Yakov Qanetski və Askanaz Mravyan çıxış etmişlər. Qars danışıqları çox gərgin və prinsipial keçmiş, tərəflər çoxlu mülahizə və təkliflərlə çıxış etmişlər. Türkiyə nümayəndə heyəti üç Cənubi Qafqaz respublikası ilə ayrı-ayrılıqda müqavilə bağlamağı təklif edirdi. Kazım Qarabəkir Paşa bunu belə əsaslandırırdı ki, "Moskva hökuməti Güney Qafqaz respublikalarını müstəqil tanıdığını bildirir. Ona görə də biz onların hər biri ilə müstəqil dövlət kimi ayrıca müqavilə bağlamaq istəyirik".

RSFSR-in nümayəndəsi Y.Qanetski bir ümumi müqavilənin bağlanmasında israr edirdi və xeyli sayda dəlillər gətirirdi. Əslində isə Y.Qanetskinin gətirdiyi dəlillər Rusiyanın bu respublikaların xarici siyasətini ləğv etmək, özünə birləşdirmək, gələcəkdə isə vahid dövlət yaratmaq niyyətlərinə xidmət edirdi.

Sovet Rusiyası nümayəndəsinin iştirakı ilə Türkiyə üç Cənubi Qafqaz respublikası arasında 13 oktyabr 1921-ci ildə Qarsda müqavilə imzalamışdır. Müqavilə 20 maddə və 3 əlavədən ibarət idi. Bu müqavilənin bir sıra müddəaları Moskva müqaviləsinin müvafiq maddələri ilə uyğun idi. Ümumilikdə isə bu sənəddə qeyri-bərabər hüquqlu müqavilələr, zorla qəbul etdirilən müqavilələr və Sevr müqaviləsi rədd edilirdi. Müqavilə Qars və Batumun ərazi məsələləri üzrə bütün müddəalar kompleksini, nəqliyyat kommunikasiyalarının fəaliyyətini və vətəndaşların azad hərəkətinin təmin edilməsi, milli və dini mənsubiyyətindən asılı olmayaraq, vətəndaş hüquqları məsələlərinin sarsılmazlığı kimi məsələləri əhatə edirdi. Onun xeyli hissəsi qaçqınlar probleminin nizamlanması və hərbi ərazilərin dəyişdirilməsinə, razılığa gələn tərəflər arasında iqtisadi, mədəni və konsulluq əlaqələrinin əsas inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə həsr olunmuşdu.

Müqavilənin 5-ci maddəsi bilavasitə Naxçıvanın taleyi ilə bağlı idi. Burada yenə də Naxçıvanın Azərbaycanın tərkibində saxlanması və muxtariyyət verilməsi məsələsi təsbit edilmişdi. Moskva müqaviləsindən fərqli olaraq Qars müqaviləsinin 5-ci maddəsində Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflər müəyyənləşdirilmişdir. Bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri olmuşdular. Müqavilənin bu maddəsində göstərilirdi ki, "Türkiyə hökuməti, Azərbaycan və Ermənistan Sovet respublikaları müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi haqqında razılığa gəlirlər".

Naxçıvanın ərazisi müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində müəyyən edilirdi: "(Naxçıvan ərazisi) Urmiya kəndindən (başlayır), oradan düz xətt ilə Arazdəyən stansiyasına (bu stansiya Ermənistan SSR-ə qalacaq), sonra düz xətt ilə Daşburun dağının (3142) qərbinə, oradan Daşburun dağının suayırıcısını (4108), Cəhənnəm dərəsi çayını, Bağırsaq dağının suayırıcısını (6607 və ya 6587) keçərək, "Rod." (Bulaq) yazısının cənubundan keçmiş İrəvan və Şərur-Dərələyəz qəzalarının inzibati sərhədləri ilə gedərək, 6629 yüksəkliyindən Kömürlüdağa (6839 və ya 6930), oradan 3080 yüksəkliyinə, Sayatdağa (7868), Qurdqulaq kəndinə, Həməsür dağına (8160), 8022 yüksəkliyinə, Kükü dağa (10282) və [nəhayət] keçmiş Naxçıvan qəzasının şərqi inzibati sərhəddində (qurtarır)".

Beləliklə, Moskva və Qars müqavilələri Naxçıvanın statusu və tabeçiliyi məsələsini beynəlxalq müqavilələrlə tam şəkildə həll etmişdir. Qars müqaviləsi müddətsiz imzalanmışdır. Bu müqaviləni imzalayan dövlətlərdən hər hansı biri onu birtərəfli qaydada ləğv edə bilməz. Qars müqaviləsi 1922-ci ilin mart-iyun aylarında müqaviləni imzalayan ölkələrin qanunverici orqanlarında təsdiq edilmiş və həmin il sentyabrın 11-dən qüvvəyə minmişdir.

Qars müqaviləsi imzalandıqdan sonra Naxçıvan bölgəsi Sovet Sosialist Respublikası elan olunmasına baxmayaraq, Ermənistan Qars müqaviləsinin bu maddəsindən müəyyən bəhanələrlə imtina etməyə cəhd göstərir, Naxçıvana qarşı ərazi iddiaları ilə çıxış edirdi. Zaqafqaziya MİK-in qərarları ilə 1929-1931-ci illərdə Naxçıvan MSSR-in ərazisinin bir qismi qanunsuz olaraq Ermənistana verilmişdir. Belə ki, 1929-cu ildə Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzası Şahbuz nahiyəsinin Ağbinə, Ağxaç, Almalı, Dağ Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qərçıvan sovetliyinə daxil olan Mehri, Buğakər yaşayış məntəqələri, Kilit kəndinin bir hissəsi, ümumən, 657 kvadratkilometr sahə Ermənistana verilmişdir. Sonrakı illərdə də bir sıra ərazilər Ermənistana birləşdirilmiş və Naxçıvan Muxtar Respublikasının beynəlxalq Qars müqaviləsi ilə təsbit edilmiş ərazisinin, təqribən, 15 faizi keçən əsrin 20-90-cı illərində Ermənistan tərəfindən qanunsuz olaraq zəbt edilmişdir.

Qars müqaviləsində muxtariyyətin əsası qoyulmuş, Naxçıvan ərazisində Naxçıvan SSR yaradılmış, lakin 16 iyun 1923-cü ildə siyasi və inzibati statusunda dəyişiklik edilən Naxçıvan SSR Naxçıvan diyarına çevrilmişdir. 1924-cü il fevralın 9-da bölgənin inzibati və siyasi statusu bərpa edilərək Naxçıvan MSSR, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

1926, 1937 və 1978-ci illərdə Naxçıvan MSSR-in konstitusiyaları qəbul edilmişdir. Bu konstitusiyalarda Naxçıvan MSSR-in siyasi, hüquqi və iqtisadi sisteminin əsasları müəyyən edilmişdir. Müstəqillik dövründə isə 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının Konstitusiyası qəbul olunmuşdur. Bu Konstitusiyada Naxçıvan Muxtar Respublikasının statusu "Naxçıvan muxtar dövləti Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır" şəklində təsbit olunmuşdur. Son illərdə muxtar respublikanın siyasi, sosial-iqtisadi və mədəni həyatında çox böyük uğurlar qazanılmışdır.

Ermənistan Respublikası 1920-ci il dekabrın 28-də Naxçıvanın müstəqilliyini tanımış, Qars müqaviləsi ilə ona Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsinə imza atmış, lakin bu gün də belə Naxçıvan iddialarından əl çəkməmişdir. Naxçıvanı ələ keçirmək istəyən, bunun üçün hər cür vasitələrdən istifadə edən, "Naxçıvan və Şərursuz Ermənistan yaşaya bilməz", – deyən ermənilərin qarşısına Qars müqaviləsi ilə sədd çəkilmişdir.

Naxçıvanın ərazi bütövlüyünün və muxtariyyət statusunun qorunub saxlanılması naminə ümummilli liderimiz Heydər Əliyev mühüm siyasi fəaliyyət göstərmişdir. Hələ 1991-ci il yanvar ayının 11-də ulu öndərin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Moskva və Qars müqavilələrinin iştirakçısı olan dövlətlərə bəyanat verərək həmin ölkələri muxtar respublikanın ərazi bütövlüyünün erməni təcavüzü nəticəsində kobud şəkildə pozulması faktlarına münasibət bildirməyə çağırmışdır. Bu, Naxçıvanın muxtariyyət statusunun beynəlxalq müqavilələrlə qorunması faktının aktuallaşdırılması ilə yanaşı, muxtar respublikanın məruz qaldığı hərbi müdaxilə təhlükəsindən diplomatik yolla qorunmasına şərait yaratmışdır.

Ümummilli liderimizin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə də Naxçıvanın muxtariyyət statusu daim diqqət mərkəzində olmuş, ulu öndərimizin müəllifi olduğu Konstitusiyamızın 134-cü maddəsində Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlət kimi təsbit edilmişdir. Ulu öndərimiz Naxçıvanın muxtariyyət statusu əldə etməsinin və Qars müqaviləsinin imzalanmasının mühüm tarixi əhəmiyyət daşıdığını bildirərək demişdir: ***"Naxçıvanın muxtariyyəti tarixi hadisədir. Bu, çətin bir dövrdə böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir".***

*Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyi və beynəlxalq Qars müqaviləsinin 90-cı ildönümünə həsr olunmuş konfransdakı məruzəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qeyd etdiyi kimi,* ***"Qars müqaviləsi dünən olduğu kimi, bu gün də, gələcəkdə də Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir".***

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

*13 oktyabr Azərbaycan dəmiryolçularının peşə bayramı günüdür*

# Dəmir yolu nəqliyyatı davamlı inkişaf mərhələsindədir




***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci il 5 oktyabr tarixli Sərəncamı ilə hər il oktyabrın 13-ü ölkəmizdə dəmiryolçuların peşə bayramı günü kimi qeyd edilir.***

Dəmir yolu təsərrüfatının sürətli inkişafı dövrü ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərə təsadüf edir. O dövrdə ümummilli liderimizin şəxsi təşəbbüsü ilə dəmir yolu nəqliyyatında əsaslı dəyişikliklərə başlanıldı. Dahi rəhbərin dəmir yoluna verdiyi böyük əhəmiyyət, onun inkişafına göstərdiyi qayğı qısa zamanda öz bəhrəsini vermiş, yeni stansiyalar və vağzal binaları inşa olunmuşdu. Əgər 1969-cu ilə qədər dəmir yolunda 159 stansiya var idisə, qısa müddətdə onların sayı 176-ya çatmışdı. Bu dövrdə çəkilmiş yeni dəmir yolu xətlərinin uzunluğu 482,8 kilometrə, elektrikləşdirilmiş sahənin uzunluğu isə 1284 kilometrə çatdırılmışdır.

O illərdə Naxçıvan Muxtar Respublikasında da dəmir yolunun müasirləşdirilməsi diqqətdə saxlanılmış, artan yük və sərnişin daşınmasına olan tələbatı təmin etmək, nəqliyyat xidmətini təşkil etmək məqsədilə 1976-cı ildə dəmir yollarının Naxçıvan Hissəsinin mərkəzi aparatı İmişli stansiyasından Naxçıvan şəhərinə köçürülmüşdür. 1988-ci ildə isə Culfa-Şərur sahəsinin elektrikləşdirilməsi yük və sərnişin daşınmasında elektrovoz dartısından istifadəyə imkan yaratmışdır.

Ötən əsrin 90-cı illərində baş verən hadisələr, xüsusilə də erməni hərbi birləşmələri tərəfindən Azərbaycan ərazilərinin 20 faizinin işğal edilməsi dəmir yoluna da ciddi ziyan vurmuşdur. Belə ki, 240 kilometrdən artıq dəmir yolu xətti erməni təcavüzünə məruz qalmışdır. Mehri-Kərçivan sahəsində qatarların hərəkətinin dayandırılması nəticəsində Naxçıvan Muxtar Respublikası ölkənin əsas ərazisindən təcrid edilərək blokadaya düşmüş və dəmir yolu əlaqəsi kəsilmişdir.

1990-1993-cü illərdə muxtar respublikada yaşayıb fəaliyyət göstərən ulu öndər dəmir yolu infrastrukturunun dağılmasının qarşısını almış, daxili yük və sərnişin daşınmasında dəmir yolu nəqliyyatından istifadə olunmuşdur.

Ümummilli liderin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra iqtisadiyyatın bütün sahələrində olduğu kimi, dəmir yolu nəqliyyatı da özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu qayğıdan muxtar respublikanın dəmiryol təsərrüfatına da xeyli pay düşmüşdür. Son illər Naxçıvan, Şərur, Şahtaxtı, Culfa, Ordubad sərnişin vağzalı binalarında, Dəstə, Yaycı, Culfa, Dərəşam, Nehrəm, Qarabörk, Naxçıvan, Şahtaxtı, Qıvraq, Şərur, Vəlidağ stansiyalarının İdarəetmə mərkəzlərində, Məhdud Məsuliyyətli Cəmiyyətin inzibati binasında, əlavə olaraq 20-yə yaxın inzibati və yardımçı binada əsaslı yenidənqurma və təmir işləri aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 16 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2011-2015-ci illər üzrə İnkişaf Proqramı" muxtar respublikada dəmir yolu nəqliyyatının inkişafına təkan vermişdir. İnkişaf proqramına uyğun olaraq mühüm dəmiryol qovşağı olan Culfa stansiyasında Yük və Sərnişin Daşımaları İdarəsinin inzibati binası, Culfa Lokomotiv Deposu, Lokomotiv Briqadalarının İdarəedilməsi Mərkəzi və Radio-Rabitə sexi binası əsaslı təmir edilərək istifadəyə verilmişdir. Həmçinin yol-nəqliyyat kompleksinin yeniləşməsi istiqamətində görülən işlərin davamı olaraq Qarabörk və Vəlidağ stansiyalarında yükləmə və boşaltma meydanı yaradılmışdır. 2011-ci ilin may ayından isə Vəlidağ stansiyasından Qarabörk stansiyasına qum-çınqıl, Şahtaxtı stansiyasından isə Naxçıvan və Qarabörk stansiyalarına travertin-mərmər bloklarının daşınmasına başlanılmışdır. Bununla yanaşı, Culfa stansiyasında "Naxçıvanterminalkompleks" Birliyi üçün 258 paqonometr uzunluğunda yeni dəmir yolu xətti çəkilmişdir.

Culfa sərhəd-keçid stansiyası ərazisində də yenidənqurma işləri aparılmış, Culfa dartı yarımstansiyasının binası əsaslı təmir olunmuşdur. Ötən müddətdə Naxçıvan, Ordubad, Şərur və Şahtaxtı stansiyalarında yolların və elektrik mərkəzləşdirmə qurğularının texniki vəziyyəti yaxşılaşdırılmış, qatarların təhlükəsiz hərəkəti təmin edilmişdir. 2014-cü il dekabr ayının 26-da İnfrastruktur İdarəsinin inzibati binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilmiş, Naxçıvan, Qarğalıq və Qıvraq dartı yarımstansiyalarında aparılan əsaslı təmir işləri başa çatdırılmışdır.

Muxtar respublikamızda aparılan tikinti-quruculuq işlərinin davamı olaraq Ordubad dəmir yolu sərnişin vağzalı və Yol Sahəsinin inzibati binaları, Ordubad İdarəetmə Mərkəzi və Yol Sahəsinin yardımçı binaları, yük anbarı, sərnişin və yük platformaları kompleks tikinti, yenidənqurma və əsaslı təmir işlərindən sonra istifadəyə verilmiş, burada iş otaqları, yük anbarı yaradılmış, stansiya ərazisindəki 425 metrlik sərnişin platforması yenidən qurulmuşdur. Həmçinin sərnişinlərə nümunəvi xidmət göstərilməsi məqsədilə muxtar respublikanın dəmir yolu təsərrüfatına 8 yeni sərnişin vaqonu təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Bu gün ulu öndərin yolunun ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycanda bütün sahələr inkişaf etdirilir. Bu inkişaf dəmir yolu nəqliyyatını da əhatə etmişdir. Hər bir müstəqil ölkədə ən vacib sahələrdən biri də dəmir yolu nəqliyyatıdır. Çünki dəmir yolu nəqliyyatının inkişafı ölkənin müstəqilliyinin və iqtisadi qüdrətinin göstəricisidir. Blokada şəraitində olmasına baxmayaraq muxtar respublikada da dəmir yolu təsərrüfatı qorunub saxlanılmaqla yanaşı, həm də inkişaf etdirilir".***

2016-cı il fevralın 23-də Tehran şəhərində "Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında Azərbaycan və İran dəmir yollarının əlaqələndirilməsi haqqında" Saziş imzalanmışdır. İmzalanan sazişə əsasən 2017-ci il dekabr ayının 29-da Naxçıvan-Təbriz-Tehran-Məşhəd qatarı fəaliyyətə başlamışdır. Bununla əlaqədar Bakı şəhərindən 3 yeni sərnişin vaqonu gətirilmişdir. Naxçıvan və Culfa stansiyalarında sərnişinlərin gömrük və sərhəd buraxılışı qeydiyyatının asanlaşdırılması məqsədilə yeni müasir avadanlıqlar alınaraq quraşdırılmış, stansiyalarda əlavə olaraq miqrasiya və viza xidmətləri yaradılmışdır. Hazırda Bakı-Tbilisi-Qars dəmir yolunun Naxçıvan-Culfa-Təbriz dəmir yolu xəttinə birləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir. Həmçinin İran İslam Respublikası ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikasına gətirilən və aparılan yüklərin daha ucuz qiymətə daşınması və səmərəli nəqliyyat marşrutları təmin edilmişdir. Belə ki, Saraks üzərindən Orta Asiyaya və Bəndər-Abbas limanına marşrutlar işlənmiş, yükdaşıma tariflərinə güzəştlər olmuşdur.

Muxtar respublikada dəmir yolu nəqliyyatı sisteminin idarə olunması, eləcə də yenidənqurma işlərinin həyata keçirilməsi üçün ixtisaslı kadrların hazırlanmasına xüsusi diqqət yetirilir. Bu məqsədlə ali və orta ixtisas təhsili müəssisələrində müvafiq ixtisaslar üzrə müasir tədris bazası formalaşdırılmışdır. Naxçıvan Dövlət Universitetində Dəmir yolu ixtisası üzrə auditoriya yaradılmış və əyani dərs vəsaitləri ilə təmin olunmuşdur. Naxçıvan Dövlət Texniki Kollecində də Nəqliyyatda daşımaların təşkili ixtisası üzrə kadr hazırlığı həyata keçirilir. Dəmir yolu sahəsində çalışan işçilərin peşəkarlıq səviyyəsinin artırılması da diqqət mərkəzində saxlanılmış, istehsalatdan ayrılmamaq şərti ilə 14 dəmiryolçu Naxçıvan Regional Peşə Tədris Mərkəzində orta ixtisas peşə kursunu müvəffəqiyyətlə bitirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrasına uyğun olaraq Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Dövlət Texniki Kollecinin 3-cü və 4-cü kurs tələbələri dəmir yolunun ayrı-ayrı strukturlarında istehsalat təcrübəsi keçirlər. Hazırda universiteti və kolleci bitirmiş 12 məzun dəmir yolunun bölmələrində əmək müqaviləsinə əsasən müvafiq vəzifələrdə çalışır.

*Dəmir yolunun inkişafı istiqamətində həyata keçirilən tədbirlər, yaradılan nümunəvi iş şəraiti, dəmiryolçulara göstərilən dövlət qayğısı onların əməyinə verilən ən yüksək qiymətdir. Ötən illər ərzində dövlətimiz tərəfindən muxtar respublika dəmiryolçularının əməyi yüksək qiymətləndirilmiş, onlardan 2-si Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə, 1-i "Şöhrət" ordeninə, 3-ü "Azərbaycan Respublikasının Əməkdar mühəndisi" fəxri adına layiq görülmüş, 24 dəmiryolçu "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Dəmiryolçular bundan sonra da öz işlərini günün tələbləri səviyyəsində quracaq, sərnişinlərə yüksək səviyyədə nəqliyyat xidməti göstərəcək və muxtar respublikanın sosial-iqtisadi inkişafına öz töhfələrini verəcəklər.*

***"Naxçıvan Dəmir Yolları"***
***Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti***

*İqtisadiyyatın inkişafında standartlaşdırmanın rolu ildən-ilə artmaqdadır. Standartlaşdırmanın əsas məqsədi istehsalın səmərəliliyinin artırılmasından, istehlakçılara çatdırılan məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsindən, təhlükəsizlik normalarının daha da təkmilləşdirilməsindən, ətraf mühitin qorunmasından və ticarətdə texniki maneələrin aradan qaldırılmasından ibarətdir.*

*14 oktyabr Beynəlxalq Standartlaşdırma Günüdür*

# Məhsulların keyfiyyətinə nəzarət günün tələbidir

Ölkəmizdə standartlaşdırma sahəsinin inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin siyasi hakimiyyətə ikinci dəfə qayıdışından sonra bu sahəyə diqqət və qayğı daha da artırılmış, hüquqi baza möhkəmləndirilmiş, yeni qanunlar qəbul edilmişdir.

Standartlaşdırma sahəsində həyata keçirilən islahatlar hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikasında standartlaşdırmanın inkişafı beynəlxalq standartlardan aktiv istifadə ilə yanaşı, müasir tələblərə cavab verən yeni milli standartların yaradılması istiqamətlərində uğurla aparılır. Ölkəmizdə keyfiyyət infrastrukturunun inkişafı və tənzimlənməsi standartlaşdırma, akkreditasiya, sertifikatlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi üzrə fəaliyyət istiqamətləri vasitəsilə həyata keçirilməkdədir. Hazırda ölkəmizdə beynəlxalq standartların tətbiqi ilə bağlı mühüm proqramların qəbulu və icrası, milli standartların beynəlxalq standartlara uyğunlaşdırılması, müasir tələblərə uyğun yeni milli standartların tətbiqi prosesi uğurla icra olunmaqdadır. Standartlaşdırmanın təkmilləşdirilməsi ölkə iqtisadiyyatının, sahibkarlığın inkişafında, istehlakçı hüquqlarının etibarlı qorunmasında, məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsində başlıca amildir.

Naxçıvan Muxtar Respublikasında da keyfiyyət infrastrukturunun inkişafı və tənzimlənməsi standartlaşdırma, akkreditasiya, sertifikatlaşdırma, metrologiya və uyğunluğun qiymətləndirilməsi üzrə fəaliyyət istiqamətləri vasitəsilə həyata keçirilir. Sakinlərin keyfiyyətli məhsul və xidmətlərə çıxış və seçim imkanlarının yaxşılaşdırılmasına dair verilmiş tapşırıqlara uyğun olaraq istehsal və idxal olunan məhsulların sertifikatlaşdırılması prosesi, patentlərin beynəlxalq mühafizəsi və istehlak bazarında keyfiyyətə nəzarət işi müasir standartlara uyğun aparılır. Bu sahədə ixtisaslı kadr potensialının formalaşdırılması və maddi-texniki bazanın yaxşılaşdırılması da daim diqqət mərkəzindədir.

Beynəlxalq normalar səviyyəsində standartların tətbiqinə geniş imkan yaradan amillərdən biri də muxtar respublika iqtisadiyyatının sürətli inkişafı, istehsal müəssisələrinin müasir standartlara cavab verən maddi-texniki baza ilə təchiz olunmasıdır. Muxtar respublikada istehsal olunan məhsulların yüksəkkeyfiyyətli, rəqabətqabiliyyətli olması, görülən işlərin və göstərilən xidmətlərin müasir standartlara cavab verməsi qarşıda duran əsas vəzifələrdəndir. Məqsəd istehlakçıların tələblərinə əsaslanan iqtisadiyyatın inkişafına nail olmaq, daxili, eləcə də xarici bazara keyfiyyətli məhsul çıxarılması prosesini sürətləndirməkdir. Bu isə standartlaşdırma sahəsində fəaliyyətin müasir tələblər əsasında qurulması ilə dəstəklənməkdədir.

Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi keyfiyyətə nəzarət infrastrukturunun və bu sahədə texniki tənzimləmə sisteminin qabaqcıl tələblərə uyğunlaşdırılmasını, istehlakçılara təklif olunan məhsulların keyfiyyətinin müasir standartların tələblərinə cavab verməsini və əhalinin etibarlı ərzaq məhsulları ilə təmin olunmasını fəaliyyətində əsas istiqamət kimi qəbul edir.

İxtisaslı kadr potensialının formalaşdırılması və maddi-texniki bazanın yaxşılaşdırılması da daim diqqət mərkəzindədir. Ötən ilin avqust ayında Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi üçün müasir memarlıq üslubunda inşa olunmuş yeni inzibati binanın istifadəyə verilməsi də həyata keçirilən tədbirlərin davamıdır. Zirzəmi qatı ilə birlikdə 5 mərtəbədən ibarət olan binada 56 iş otağı, akt zalı, laboratoriya otaqları, reyestr və kadastrın saxlanması otağı, kitabxana, arxiv, təlim-treninq otağı, ölçmə vasitələrinin saxlanması və yoxlanma otaqları, standartlar üzrə informasiya otağı, standart və patent fondu yerləşir. Laboratoriyalarda elektrik, təbii qaz və su sayğaclarının yoxlanılması, eləcə də təzyiq, temperatur, çəki və həcmölçmə vasitələrinin kalibrlənməsi üzrə çoxfunksiyalı avadanlıqlar quraşdırılmışdır.

Hazırda agentliyin standartlar fondunda Azərbaycan Respublikasında qüvvədə olan 19 min 582 texniki normativ-hüquqi akt mövcuddur ki, bu hüquqi bazadan da aktiv istifadə olunmaqdadır.

Standartların təsərrüfat subyektlərinə çatdırılması, maarifləndirilməsi üzrə fəaliyyət çərçivəsində bu ilin əvvəlindən hüquqi və fiziki şəxslərlə 155 müqavilə bağlanmış və 28 müəssisədə istehsal olunan 73 məhsulun etiket layihəsi texniki normativ-hüquqi aktlara uyğun olaraq 3 dildə hazırlanmışdır. Agentliyin standartlar fondunda mövcud olan standartların tələbləri ilə sahibkarları, tələbələri tanış etmək və bu sahədə maarifləndirmək məqsədilə seminarlar keçirilmişdir.

Müəssisələrin gəlirlərindən, fəaliyyət sahəsindən, işinin həcmindən və bazardakı mövqeyindən asılı olmayaraq, fəaliyyətlərinin ən səmərəli yolu standartların tələblərinə uyğun idarəetmə sisteminin qurulmasıdır. Muxtar respublikada əhalinin sağlamlığının və istehlakçıların hüquqlarının qorunması, ətraf mühitin mühafizəsi məqsədilə standartlaşdırma sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər bundan sonra da uğurla davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası***
***Antiinhisar və İstehlak***
***Bazarına Nəzarət Dövlət***
***Agentliyinin mətbuat xidməti***

**İtmişdir**

Zamanov Rəşad Sevdiyar oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 747